


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 185 (24.322)

*7 oktyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Qonaq qlobal səhiyyə liderliyi sahəsində Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi həyata keçirdiyi fəaliyyətin çox yüksək qiymətləndirildiyini qeyd etdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda onlayn Zirvə görüşünün keçirilməsinə, Azərbaycanın vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olmasına və həyata keçirdiyi fəaliyyətə görə minnətdarlığını bildirdi. Hans Henri Klugen Azərbaycanın pandemiya dövründə 80-dən artıq ölkəyə dəstək göstərdiyini qeyd etdi, ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində yaratdığı COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sisteminin çox səmərəli olduğunu və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə böyük töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Hans Henri Kluge BMT-nin rezident əlaqələndirici ofisinin və ÜST-ün Bakı ofisinin nümayəndələrinin də daxil olduğu missiyanın Azərbaycanın Qarabağ bölgəsinə həyata keçirdiyi səfərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev COVID-19-a qarşı mübarizədə ÜST-ün ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi, Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi 80-dən artıq ölkəyə yardım etməsindən, Qoşulmama Hərəkatı çərçivəsində COVID-19-a qarşı mübarizə üzrə məlumat bazası sistemi yaradılmasından və vaksin həmrəyliyi ilə bağlı səylərimizdən danışdı.

Dövlətimizin başçısı Azərbaycanın milli, regional və beynəlxalq səviyyədə yardım proqramlarını həyata keçirdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı bildirdi ki, Qarabağda yerli əhali arasında təşviş yaradan və onları Ermənistana köçməyə məcbur edən məhz qondarma rejim olub.

Dövlətimizin başçısı vurğuladı ki, "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılmasından etibarən Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə tibbi təxliyələrin təşkili prosesinə dəstək göstərilib.

Prezident İlham Əliyev Xankəndidə yanacaq stansiyasında baş vermiş partlayışdan sonra Azərbaycan yanğınsöndürənlərinin bu yanğının qarşısını aldığını, zərərçəkmiş insanlara dəstək göstərildiyini, hazırda Azərbaycanın tibbi heyətinin Xankəndidə yerli əhaliyə xidmətlər göstərdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin nümayəndələrinin yerlərdə xidmət göstərdiklərini, əhalinin qeydiyyata alınması prosesinin başlandığını, bunun üçün ayrıca portalın fəaliyyət göstərdiyini bildirdi, gündəlik ehtiyacların ödənilməsi və qida təchizatı üçün aidiyyəti qurumların yerində xidmət apardıqlarını dedi.

Dövlətimizin başçısı ərazidə mühüm infrastruktur obyektlərinin, eləcə də tarixi, dini və mədəni abidələrin polis tərəfindən mühafizə olunduğunu, elektrik təchizatının həyata keçirildiyini bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar Qarabağın erməni sakinlərinin reinteqrasiyası proqramının hazır olmasının və həyata keçirilməsinin göstəricisidir.

Görüşdə yaxın vaxtlarda BMT-nin Azərbaycanda rezident əlaqələndirici ofisinin təşkilatın aidiyyəti ixtisaslaşmış qurumlarının nümayəndələri ilə birlikdə ərazilərə yenidən səfər edəcəkləri diqqətə çatdırıldı, ölkəmizin bu prosesi dəstəklədiyi qeyd olundu.

## Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Milli Assambleyasının sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Serbiya Respublikası Milli Assambleyasının sədri Vladimir Orliçi qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq əlaqələrinin zəngin tarixə malik olduğunu deyərək bunun qarşılıqlı dəstəyə əsaslanan münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaratdığını bildirdi, Serbiyaya səfərini məmnunluqla xatırladı.

İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev investisiya, enerji, sənaye sahələri ilə bağlı fəal əməkdaşlığın həyata keçirildiyini dedi. Dövlətimizin başçısı münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin də önəmini qeyd etdi.

Azərbaycan Prezidenti Vladimir Orliçin səfərinin dinamik şəkildə inkişaf edən əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Qonaq, ilk növbədə, Serbiya Prezidenti Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Serbiya Milli Assambleyasının sədri ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Serbiyanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində haqlı mövqelərini dəstəklədikləri qeyd edildi, münasibətlərimizin strateji tərəfdaşlıq prinsiplərinə, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətə əsaslandığı vurğulandı, parlamentlərarası əlaqələrin və parlamentlərarası beynəlxalq təşkilatlarda əməkdaşlığımızın vacibliyi vurğulandı.

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının İran tərəfdən həmsədri Mehrdad Bəzrpaşı qəbul edib.

Dövlətimizin başçısı bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında keçirilmiş avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini qeyd edərək, bunun dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirərək, bu gün Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək.

Dövlətimizin başçısı, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı və ötürücülük qabiliyyətinin daha da genişləndirilməsi istiqamətində aparılan işlərin önəmini qeyd etdi.

İkitərəfli münasibətlərimizin gündəliyinin yalnız nəqliyyat sektorunu deyil, eyni zamanda daha geniş sahələri əhatə etdiyini deyən Azərbaycan Prezidenti Hökumətlərarası Komissiyanın fəaliyyətini yüksək qiymətləndirdi, bütün sahələr üzrə yaxşı nəticələrin əldə edildiyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan-İran dostluğunun və əməkdaşlığının bütün bölgə üçün önəmli amil olduğunu vurğuladı.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələrinin iştirakı ilə həll edilməsinin vacibliyini bildirərək, bu xüsusda 3+3 əməkdaşlıq formatının da təşəbbüskarının məhz Azərbaycan olduğunu qeyd etdi, tezliklə bu formatda görüşlərin keçiriləcəyini müsbət bir addım kimi qiymətləndirdi.

Mehrdad Bəzrpaş, ilk növbədə, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycanın Qarabağ bölgəsinin reinteqrasiyası ilə bağlı təbriklərini çatdırdı və bunu çox mühüm hadisə kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın pozulmuş haqlı və ədalətli mövqeyi 30 ildən sonra xoşbəxtlikdən öz yerini tutdu və ölkə suverenliyini bərpa etdi.

Mehrdad Bəzrpaş region ölkələri və xalqlarının bir-biri ilə dərin tarixi və mədəni əlaqələrə malik olduğunu deyərək Cənubi Qafqazda sülhün region üçün böyük perspektivlər yaradacağını bildirdi.

**AZƏRTAC**

## *“Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar”* mövzusunda elmi-praktiki konfrans keçirilib

Oktyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Müasir dövrdə ədalət mühakiməsi: Yeni çağırışlar, yeni imkanlar” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Tədbirdən əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Konfrans iştirakçıları Heydər Əliyev Muzeyinə gedərək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.



Sonra öz işinə başlayan konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban




vermiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Heydər Əliyevin şərəfli ömür yoluna və zəngin siyasi fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2023-cü il “Heydər Əliyev İli” elan olunub və respublikamızın bütün bölgələrində Ulu Öndərin ömür yolu, dövlətçilik fəaliyyəti, onun zəngin irsi araşdırılır və gənc nəslə ötürülməsi üçün təqdim olunur. Bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etdirilməsi məhz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Qeyd edilib ki, Ümummilli Liderin böyük səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında ölkəmizdə bütün sahələrin, o cümlədən məhkəmə hakimiyyətinin inkişafının müasir Azərbaycanın memarı Ulu Öndərin adı ilə bağlı olduğunu vurğulayıb. Bildirilib ki, Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycanda yeni məhkəmə sisteminin tədricən təkmilləşdirilməsi istiqamətində xeyli uğurlu işlər görülüb. İnam Kərimov məhkəmə-hüquq sahəsində son dövrlər aparılan islahatlara da toxunaraq formalaşdırılmış vahid məhkəmə təcrübəsinin bütün hüquq ictimaiyyətinə əlçatanlığının təmin edilməsi istiqamətində hazırda mühüm fəaliyyətin həyata keçirildiyini qeyd edib. Bildirilib ki, məhkəmə sistemi qarşısında duran yeni çağırışlara cavab vermək üçün ölkəmizdə məhkəmələrin müasir tələblərə



uyğun qurulması, ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması və innovativ texnologiyaların tətbiqi, məhkəmə proseslərində çevikliyin artırılması zamanın tələbidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxışında deyib ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi ilk gündən respublikada dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimlənməsi, insan hüquq və azadlıqlarının məhkəmələrdə maksimum dərəcədə qorunması, liberal dəyərlərin möhkəm təmələ çevrildiyi sivil cəmiyyətin yaradılması istiqamətində genişmiqyaslı islahatların reallaşdırılmasını təmin edib. Sədr vurğulayıb ki, müasir dövrdə məhkəmələrin fəaliyyətinin ədalətliliyi və etibarlılığı cəmiyyətin və dövlətin demokratikliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi və təmininin qiymətləndirilməsinin meyarlarından biri kimi qəbul edilir. Son 20 ildə yeni dövrün tələblərini adekvat şəkildə reallaşdıran islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olub.

Sonra çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini Çingiz Əsgərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Çingiz Əsgərov vurğulayıb ki, bu gün Azərbaycanda məhkəmə sistemində daha geniş islahatlar həyata keçirilir, müasir texnologiyalar tətbiq edilir, qanunvericilik bazası təkmilləşdirilir. Əsası Ulu Öndər tərəfindən qoyulan dayanıqlı və perspektivli məhkəmə sistemi yeni dinamik inkişaf mərhələsini yaşayır.

Daha sonra Azərbaycan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Daşqın Rəhimov və Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev çıxışlarında Ulu Öndərin zəngin və şərəfli həyat yolu, dövlətçilik fəaliyyətindən, Onun başçılığı ilə aparılan hüquq islahatlarından, ölkəmizin bütün sahələrdə inkişafının təmin olunması istiqamətində göstərdiyi əvəzsiz xidmətlərdən danışıblar.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

## Ədliyyə Nazirliyində görüş

BMT-nin Uşaq Fondunun Azərbaycan Respublikasındakı Nümayəndəliyinin Uşaq müdafiəsi proqramının rəhbəri Vüqar Salmanov Naxçıvan Muxtar Respublikasına səfər proqramı çərçivəsində Ədliyyə Nazirliyində olub.

Ədliyyə naziri Daşqın Rəhimovla görüş zamanı probasiya nəzarətində olan uşaqlar, eyni zamanda uşaqlarla bağlı məhkəmə işlərinin təşkili məsələləri barədə müzakirə aparılıb. Görüşdə vurğulanıb ki, dövlət başçısı cənab İlham Əliyev rəhbərliyi



ilə həyata keçirilən hərtərəfli inkişaf strategiyası ölkə həyatının bütün sahələrini əhatə edir, o cümlədən cəmiyyətimizin həssas təbəqəsi olan uşaqlara yüksək qayğı ilə yanaşılır, onların problemlərinin həlli istiqamətində konkret addımlar atılır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Tütün əkini mövsümünün yekunları ilə əlaqədar tədbir olub



*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi və “Cahan Tobacco International” Məhdud Məsuliyyətli Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Naxçıvan Saray”da keçirilən tədbirdə əvvəlcə Dövlət Himnimiz səsləndirilib.*

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşova bildirib ki, “Azərbaycan Respublikasında Tütünçülüyün inkişafına dair Dövlət Proqramı”nın icrası istiqamətində 2017-ci ildən Naxçıvan Muxtar Respublikasında da tütünçülük ənənələri yenidən inkişaf etdirilir. Hazırda muxtar respublikada 4 bölgədə tütün əkinləri həyata keçirilir. Bu il muxtar respublikada 482500 ton yaş tütün yığılıb. İstehsal olunan məhsullar orqanik Naxçıvan məhsulları sırasında öz yerini alır.

Sonra Naxçıvanda tütünyetişdirmə ənənələri və “Cahan Tobacco International” MMC-nin fəaliyyətindən bəhs edən video-material təqdim olunub.

“Cahan Tobacco International” MMC-nin direktoru Serhat Eroğlu çıxışında bildirib ki, əlverişli iqlim və torpaq şəraiti olan Naxçıvanda da keyfiyyətli tütün yetişdirməyə geniş imkanlar var. 2017-ci ildən başlayaraq fəaliyyət göstərən “Cahan Tobacco International” MMC muxtar respublikada yetişdirilən yerli xammala üstünlük verir. Odur ki, ötən 7 ildə birgə fəaliyyət nəticəsində yüksək nəticələr əldə edilib.

Tədbirdə digər çıxışlar dinlənilib.

Sonra muxtar respublikada tütün əkini və istehsalı ilə bağlı təşkil olunmuş sərgiyə baxış olub, tütün əkinində yüksək nəticələr əldə etmiş təsərrüfatçılara qiymətli hədiyyələr təqdim edilib.

## Hüquqşünaslar üçün təlim

*Hüquq və İnsan Haqları İnstitutu Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasında hüquqşünaslar üçün təlim keçirib.*



Avropa Şurası Katibliyinin İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının dəstəyi ilə “AİHK-in 3-cü maddəsi. Azərbaycanda İşgəncələrin qadağan olunması İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin baxış bucağında” mövzusunda keçirilən təlimdə ədliyyə qurumlarının, prokurorluq orqanlarının əməkdaşları və Vəkillər Kollegiyasının üzvləri olmaqla, 21 nəfər iştirak edib.

İnstitutun təlimçi-eksperti Vüsalə Muradxanlı AİHK-in 3-cü maddəsinin mahiyyətinə, təlimçi-ekspert, Vəkillər Kollegiyasının üzvü Günel İsmayılbəyli maddədə nəzərdə tutulan ifadələrin açıqlanmasına dair şərhlər verməşlər.

Təlimdə iştirak edən hüquqşünaslara sertifikatlar təqdim edilib.

**Xəbərlər şöbəsi**

## Şəffaflıq günümüzün tələbidir

*Naxçıvan Muxtar Respublikasında mikro və kiçik sahibkarlıq subyektlərinin iştirak etdikləri tədbirdə Azərbaycan Respublikasının vergi sistemi, mikro sahibkarlıq subyektlərinə tətbiq edilən vergi güzəştləri və azadolmaları barədə danışılıb.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov bildirib ki, iqtisadiyyatda şəffaflığın təmin edilməsi prioritet vəzifə olaraq müəyyənləşdirilib və son illərdə “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması istiqamətində ardıcıl və sistemli işlər aparılır. Vurğulanıb ki, ölkə iqtisadiyyatının sürətli inkişafı üçün vergi sistemi qarşısında qoyulan yeni tələblərin qısa zaman ərzində muxtar respublikada tətbiqinə başlanılıb və həyata keçirilən struktur islahatları müsbət nəticələrin əldə olunmasına şərait yaradıb. Diqqətə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində Naxçıvan şəhərində Vergiödəyicilərinə Xidmət Mərkəzi sahibkarların və vətəndaşların istifadəsinə verilib. Muxtar respublikada fəaliyyət göstərən vergiödəyiciləri üçün vergi xidmətlərinin əlçatanlığının artırılması və könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunması məqsədilə qarşıdakı dövrdə xidmət mərkəzləri şəbəkəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Vergiödəyicilərinə Xidmət İdarəsinin rəisi Zahid Qənbərov mikro və kiçik sahibkarların şəffaf fəaliyyəti üçün nəzərdə tutulmuş vergi güzəştləri və vergi qanunvericiliyinin tələblərinin pozulmasına görə yarana biləcək risklər barədə təqdimat edib.

Tədbirdə mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

Ordum varsa, yurdum var

# Yeni kompleks Naxçıvanda müdafiə sənayesinin inkişafına yol açır

*Bir neçə gün bundan əvvəl, daha doğrusu, sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak etdilər.*

Kompleks haqqında məlumat verildi ki, burada müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmirini və modernləşdirilməsini, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək mümkün olacaq.



Bir mərkəz, 8 təmir müəssisəsi və 10 sahədən ibarət olan kompleksdə müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda kompleksdə digər zəruri tədbirlər də həyata keçirilib, zirehli və avtomobil texnikaları parkında texniki nəzarət məntəqəsi, texniki qulluq və təmir məntəqəsi binaları, 284 yer texnika tutumu olan 4 saxlanc, yanacaqdoldurma, yuma və gündəlik texniki qulluq məntəqələri inşa olunub.

Hərbi texnikaların təmiri və bərpası ölkələr üçün çox böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünya ölkələri arasında hərbi texnika və silah-sursat satışında ən çox diqqət edilən məsələlərdən biri də ehtiyat hissələri ilə təminat məsələsidir. Digər tərəfdən, hərbi təyinatlı məhsullar davamlı olaraq yenilənməyə məcburdur. Təbii ki, burada da əsas məsələlərdən biri kimi ehtiyat hissələri ön planda durur. Bütün bunlar isə dövlət və hərbi müdafiə təşkilatları üçün böyük maliyyə vəsaiti deməkdir. Bu baxımdan hər bir ölkə özünün müdafiə strategiyasında bu həllivacib məsələləri diqqət mərkəzində saxlayır. Dünya təcrübəsində maraqlı məqamlardan biri odur ki, harada baş verməsindən asılı olmayaraq, adətən, hərbi əməliyyatlar müdafiə sənayesinin inkişafına təkan verir. Məsələn, Türkiyə 1974-cü ildə Şimali Kiprdə baş verən müharibədən sonra öz NATO müttəfiqlərinin silah embarqosuna məruz qaldı. Bu isə rəsmi Ankaranı milli müdafiə sənayesini inkişaf etdirməyə vadar etdi. Və yaxud 2008-ci ildə Rusiya ilə müharibədən sonra qonşu Gürcüstan eyni taleyi yaşamağa məcbur oldu. Moskvanın təzyiqləri ilə 2000-ci illərin əvvəllərində Gürcüstana külli miqdarda silah və texnika satışı reallaşdıran ölkələr müharibədən itkilərlə ayrılmış Tiflisə hərbi texnika satışından imtina etdilər. Çıxılmaz vəziyyətdən xilas olmaq üçün Gürcüstan özünün milli hərbi sənaye kompleksini yenidən qurmağa başladı. Azərbaycan nümunəsində isə mənzərə tamamilə fərqli idi. Çünki ölkəmiz müstəqilliyinin ilk illərindən Ermənistanın təcavüzü ilə üzləşmişdi və uzun illər müharibə vəziyyətində idi. Buna görə də bizdə ordu quruculuğu məsələlərində hərbi sənayenin inkişafı əvvəlcədən düşünülmüş hərbi-siyasi strategiya idi. Bir az da dərinə getsək, hələ SSRİ dövründən Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda hərbi-sənaye kompleksinin əsası qoyulmuşdur. Həmin dövrdə Azərbaycanda olan demoqrafik artımı və mövcud elmi potensialı nəzərə alan görkəmli dövlət xadimi SSRİ-nin ağır maşınqayırma və hərbi sənaye kompleksi müəssisələrinin respublikada yaradılması məsələsini Sov.İKP MK-nın Siyasi Bürosu qarşısında qaldırmışdır. Onun təklifi və qətiyyəti sayəsində Azərbaycanda radiotexnika və cihazqayırma sənayesi üzrə üç yeni müəssisənin – Radio maşınqayırma zavodunun ("Robot" zavodu), Tərtərdə Lionozov elektromexanika zavodunun filialının və Elektron hesablama maşınları zavodunun ikinci növbəsinin tikintisi, elektron sənayesi üzrə dörd zavodun – Gəncədə "Büllur" zavodunun, Xaçmazda, Siyəzəndə və Lənkəranda "Kondensator" zavodlarının tikilməsi, müdafiə sənayesi üzrə Azov Optika-mexanika ("Alov") zavodunun filialının yaradılması, Alunit zavodunun tikintisi, gəmiqayırma sənayesi üzrə Bakı Elektro-Mexaniki İnstitutunda yeni istehsal sahələrinin yaradılması, aviasiya sənayesi üzrə istehsal sahələrinin genişləndirilməsi və sair məhz bu təşəbbüsün nəticəsi idi. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə, xüsusilə neft gəlirlərinin artması nəticəsində ölkəmizdə ordu quruculuğu prosesi daha geniş vüsət aldı. Bu prosesin mühüm tərkib hissəsi olan müdafiə sənayesinin inkişafı ilə bağlı mütərəqqi addımlar atıldı. Təsadüfi deyildi ki, II Qarabağ müharibəsində Azərbaycan digər ölkələrdən alınmış hərbi texnikalarla yanaşı, öz istehsalımız olan silah-sursatlardan da istifadə etmişdir. II Qarabağ müharibəsi, eyni zamanda hərbi sənayenin müasir dövrün tələblərinə uyğun şəkildə qurulması və inkişaf etdirilməsinin yolunu göstərmişdir. Naxçıvanda yeni fəaliyyətə başlayan Bərpa istehsalat hərbi kompleksinə də bu prizmadan baxmaq lazımdır. Əvvəldə də qeyd etdiyimiz kimi, bu kompleksdə silahların, avtomobil texnikalarının, artilleriya və hava hücumundan müdafiə vasitələrinin, zirehli tank texnikalarının, elektron və rabitə avadanlıqlarının, mühəndis texnikalarının və aqreqatlarının təmiri, mexanikləşdirilmiş emal sexləri fəaliyyət göstərəcək. Silahların təmiri sexində ən son texnoloji avadanlıqlarla atıcı silahların qumla təmizlənməsi və kimyəvi üsulla yenidən rənglənməsi işləri aparılacaq. Elektron və rabitə avadanlıqlarının təmiri sexində xüsusi antistatik otaqlarda elektron avadanlıqların və optik gecəgörmə cihazlarının təmiri və sınaqdan keçirilməsi mümkün olacaq. Bütün bunlar isə ordumuzun texniki təchizatında mühüm rol oynayacaq. Bunu da nəzərə alaq ki, hərbi texnikaların təmir və bərpası işində daşınmalar uzaq olduqca, xərclər də çox olur, vaxt itkisi də. Bu isə müharibə vəziyyətlərində istənilən ordu üçün arzuolunmazdır. Digər tərəfdən, yeni hərbi kompleks zamanla bu sahədə ixtisaslaşmış kadrların sayını artıracaq ki, bu da müdafiə sənayesinin inkişafı üçün mühüm amildir. Ümumilikdə isə strateji baxımdan böyük əhəmiyyət daşıyan belə hərbi kompleksin muxtar respublikada yaradılması gələcəkdə müdafiə sənayesinin inkişafına da töhfə olacaq.





**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Özgə bir payızdır bu gələn payız
## Bir payız gününün düşüncələri

Qoca Şərqin qapısında vüqarla, əzəmətlə, məğrurluqla dayanan, günü-gündən cavanlaşan qədim Naxçıvanım! Nuhun izləri yaşayan diyar! Böyük Mirzə Cəlilin, Hüseyn Cavidin ana Vətəni! Beşminillik şəhər mədəniyyətinə malik olan ulu yurd yerim. Görkəmli dövlət xadimi Heydər Əliyevi dünyaya bəxş edən müqəddəs məmləkət! Səndə tarixlərin çox nişanı var. Sənin dününə boylanıram, bu gününə baxıram, sabahını görürəm. Yaşadığın şanlı tarix bu gün böyük sevgi və ehtiramla yad edilir, yaşadılır. Bu tarixin bir-birindən zəngin səhifələri qəhrəmanlıqlarla doludur. Bu gün isə özünün yeni dövrünü yaşayırsan, doğma məmləkətim. Sevinirik ki, gözəllik sənin yolyoldaşına çevrilib. Bütün fəsillərdə bu gözəlliyi, füsunkarlığı görmək olar. Diyarımıza yenicə qədəm qoyan payızın gözəllikləri də bu yurdun insanlarına özgə bir ovqat bəxş edir.



Bu ovqat xəyallarımı bir neçə il öncəyə göndərir ilk payız günlərinin birində, şəhərimizin bir-birindən gözəl ünvanlarını gəzə-gəzə.

...Üç ildir ki, payızı həm də ölkəmizin ərazi bütövlüyünün təmin olunduğu fəsil kimi qeyd edirik. 2020-ci ilin ilk payız günlərinin birində – sentyabr ayının 27-də başlanan mücadilə 30 il işğal altında qalmış torpaqlarımızın geri qaytarılması, neçə-neçə igidimizin şəhidlik zirvəsinə ucalması, sağlamlığını itirərək doğma ev-eşiyinə qazi kimi qayıtması ilə nəticələndi. Ölkəmiz, necə deyərlər, dərindən nəfəs alaraq ərazi bütövlüyünə qovuşdu. Bu tarixi qələbədə naxçıvanlılar da öz torpaq təəssübkeşliyini, yurda bağlılıqlarını, Vətənə sevgi və məhəbbətlərini göstərdilər. Və bu illərin payızları həm də bizim onların ruhları qarşısında borcumuzu bir daha göz önünə gətirir. Bunları düşünə-düşünə yolumu şəhərimizin ən müqəddəs ünvanına – Şəhidlər xiyabanına salıram. Həmişə dolu olan bu ünvanda yenə də insanlar öz xilaskarlarını yad edirlər:

*Torpağın qoynunda şəhidlər yatır,*
*Şəhidlik! Ulu ad daşıyır onlar.*
*Nə qədər bu torpaq, bu Vətən durur –*
*Beləcə, ömr edib yaşayır onlar.*

Və istər-istəməz düşünürəm ki, onların ömrü də payızın ömrü kimi qısa oldu; ömürlərinin payızı daha tez gəldi...

...Qəlbimdə onlara dərin minnətdarlıq hissi ilə Əcəmi seyrəngahına üz tuturam. Seyrəngah insanlarla doludur. Payızın gözəlliyini burada duymağın özü bir gözəllikdir, – deyə düşünürəm:

*Təbiət bu yeri gəzib ayrıca*
*Nə qədər gözəllik bağışlayıbdır.*
*Günəş zirvələrdən süzüb ayrıca*
*Dağları yarıdan naxışlayıbdır.*
***(M. Qasımzadə)***

Bəlkə də, payızın bundan gözəl poetik təsvirinə rast gəlməmişəm. Bu sətirlər bir rəssam tablosunu xatırladır sanki bəstəkar bəstəsidir, dinlədikcə ruhun təzələnir. Sənin payız gözəlliyini, elə bil ki, birinci dəfədir, görürəm. Düşünürəm ki, elə sənin gözəlliyinin ülviyyəti də bundadır. Hər seyr edəndə o gözəlliyin yeni qatları üzə çıxır, sirli-soraqlı bir aləmə aparır adamı. Qeyri-ixtiyari olaraq üzünə təbəssüm qonur ki, bu yurd mənim yurdumdur, bu payız mənim yurdumun payızıdır.

Mənim, sənin, onun olan bu yurd yerində, hələlik, payızın ilkin əlamətləri özünü göstərməkdədir. Bu da bir gözəllikdir: ağacların yarpaqları öz rəngini təzə-təzə dəyişməyə başlayıb. Elə o ağacların o yarpaqları yüngülvarı əsən mehdən tərpəşməkdədir. Başımı qaldırıb səmanın ənginliklərini seyr etmək istəyirəm. Çətirlənmiş ağacların arasından batmaqda olan Günəşin solğun şüaları gözümə dəyir.

Oturduğum skamyadan qalxıb seyrəngahın içərisinə doğru addımlayıram. Uşaqların, gənclərin, ahıl insanların təbəssümlü baxışları ilə rastlaşıram. Hiss etmək çətin deyil ki, buradakı istirahətdən zövq alırlar. Bəlkə də, hansı birininsə ürəyindən keçir:

*Ömrümə bir payız qonağı gəlib*
*Saralan yarpaqlar üşüdür məni.*
*Ömrümə bir payız sınağı gəlib*
*Yaratmaq ümidi yaşadır məni.*
***(H.Eyvazlı)***

Bir neçə il əvvəl burada salınmış şəlalənin yaxınlığında ayaq saxlayıram. Təbiətin ən gözəl mənzərəsini burada yaratmaq insan zəkasının məhsuludur, insan övladının doğma yurd yerinə bağlılığının ifadəsidir, insan amilinə ehtiramın təcəssümüdür. Buradan görünən Qızlar bulağı isə təbiətin doğma Naxçıvana bəxş etdiyi möcüzələrdən biridir.

Bu payız günlərində Qızlar bulağı yenə də gənclərlə doludur. Neçə ülvi məhəbbətə şahidlik edib Qızlar bulağı. Bu gün yenə də bu "xeyirxah missiya"nı yerinə yetirir. Sevənlərə öz qoynunda yer verir. Sanki payıza yenidən vurulursan.

Payız həm də sevib-sevilənlərin fəslidir, toybüsat fəslidir:

*Yenə xatirələr baş alıb gedər*
*Çəkər ortalığa söz məhəbbəti.*
*Payız toylarında toy-bayram edər*
*Hərənin qəlbində öz məhəbbəti.*
***(M.Qasımzadə)***

Bu şeirin hər sətri bu payız günündə xatirələrimizi daha da ülviləşdirir, özümüzü o toylarda görürük, Qızlar bulağında gəzişən, söhbətləşən, çöhrələrindən məhəbbət yağan gənclərə, bir qədər həsədlə baxırıq...

*Tikilir, qurulur qədim Naxçıvan,*
*Hər an gözəlləşir, bu xoş günündə.*
*Çiçək dənizidir qoynunda hər yan,*
*Bütün gözəlliyi sənsən önündə.*
***(İ. Yusifoğlu)***

*Bir payız günündə bu füsunkar təbiətin, ülvi gözəlliyin qoynunda aldığım təəssürat ruhumu təzələyir. Bu, doğma Naxçıvanımızın payızıdır, sənin, mənim, hamımızın payızıdır...*

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Görüş keçirilib



Naxçıvan Muxtar Respublikasına ikigünlük səfər çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin Uşaq Müdafiəsi Proqramının rəhbəri Vüqar Salmanov Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın üzvləri və rayon (şəhər) icra hakimiyyətləri yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi və Qəyyumluq və Himayə komissiyalarının sədrləri və üzvləri ilə görüşüb. Tədbiri giriş sözü ilə açan komissiyanın sədri Ramilə Seyidova dövlət uşaq siyasətinin muxtar respublikada da uğurla həyata keçirildiyi haqqında məlumat verib.

Sonra müvafiq komissiya üzvlərinin çıxışları olub.

BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı Nümayəndəliyinin Uşaq Müdafiəsi Proqramının rəhbəri Vüqar Salmanov muxtar respublikada uşaq hüquqlarının müdafiəsi sahəsində UNICEF-in təcrübəsini paylaşmağa hazır olduqlarını və bu məqsədlə maarifləndirici görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq UNICEF-in Azərbaycandakı Nümayəndəliyi tərəfindən icra olunan layihələr haqqında ətraflı məlumat verib.

Tədbirdə uşaqlarla bağlı mövcud problemlər müzakirə olunub, gələcək perspektivlər barədə fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# İncə zövqlərin gözoxşayan harmoniyası



Bir həftədir ki, Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında dahi öndərin 100 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış həyata keçirilir. Sərgidə iştirak edən müəlliflər sırasında ahıl vətəndaşlar və özünüməşğulluq proqramına cəlb edilmiş şəxslər də yer alıb. Belə sərgi-satışların təşkil edilməsində məqsəd qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, ailə dəyərlərinin çoxəsrlik adət-ənənələrin gənclərə aşılanması, onların yaşadılmasıdır. Sərgiyə 431 müəllifin 10 787 adda əl işi çıxarılıb. Biz də Heydər Əliyev Sarayında təşkil olunan sərgi-satışda iştirak edib əl işlərinin müəllifləri və buraya üz tutan qonaqlarla həmsöhbət olduq. Sərgi-satışda əl işlərinə maraqla baxan bir qonaq diqqətimizi çəkdi. Yaxınlaşaraq sərgi haqqında fikirlərini bizimlə bölüşməsini xahiş etdik. Bakı şəhərindən olan ***Ruslana Xətaizadə*** bildirdi ki, təşkilatçılıq və sərgilənən əl əməyi, göz nuru olan işlər onun çox xoşuna gəlib. Ən çox da işlərin təkrarsızlığı onun diqqətini çəkmişdi. Bakıya qayıdarkən ailə üzvlərinə və rəfiqələrinə naxçıvanlı xanımların hazırladığı əl işlərindən hədiyyə kimi də alıb aparacağını bildirdi. Müsahibimiz sonda onu da dedi ki, qadınların işlərinin bu cür dəyərləndirilməsi bir qadın olaraq onda xoş təəssürat yaratdı.







Digər müsahibimiz sərgi-satış üçün Bakıdan dəvət olunan müəllif ***Xuraman Səfərova***nın dediklərindən: – 30 ilə yaxındır ki, muncuqlar hazırlayıram. Hər il bu cür sərgi-satışlarda yaxından iştirak edirəm. Bu gün burada təkcə hazırladığım qurama işləri, milli parçalardan çantalar, parça üzərində zəfər tariximizi əks etdirən görüntülərdən, müxtəlif ev aksesuarlardan ibarət nümunələr nümayiş olunur. Satış yüksək səviyyədə keçirilir və artıq əl işlərimizin müəyyən bir hissəsi satılıb.

Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi, Təsviri incəsənət müəllimliyi ixtisasında təhsil alan ***Mələkxanım Eyvazova*** söhbət zamanı bildirdi ki, sərgidə əl işləri nümunələrimizdən rəngkarlıq, boyakarlıq, heykəltəraşlıq, keramika, bədii tikmə, duzdan hazırlanmış aksesuarlar, vitraj nümunələri ilə birlikdə 100 ədəd əl işi göz oxşayır, alıcılar tərəfindən bəyənilir və hər kəsin də əl işlərinə qarşı xüsusi marağının olduğunu görürük. Sərgidə Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin tələbələri də əl işləri ilə iştirak edir. Fakültə olaraq 100-dən çox əl işi nümayiş olunur. Sərgiyə böyük maraq göstərildiyindən danışan müsahibim sifarişlər də aldıqlarını deyir. Qonaqlar arasında Sabirabad rayon sakini ***Simarə Nadirova*** deyir ki, ilk dəfədir, bu cür sərgi-satışda iştirak edirəm. Burada nümayiş edilən əsərlər insanın zövqünü oxşayır. Mən də burada anamın sevdiyi mirvarilərdən alıb ona hədiyyə edəcəyəm. Həm də bir neçə əl işi alıb Naxçıvandan xatirə olaraq saxlayacağam.





Zərif toxunuşlarla hazırladıqları əl işlərini nümayiş etdirən xanımlarımız həm də onların hazırlanma prosesini sərgiyə gələn qonaqlara göstərirdilər. Müsahibimiz ***Vüsalə Novruzova*** ənənəvi olaraq təşkil edilən sərgi-satışda üç ildir ki, iştirak etdiyini dilə gətirir. Evdə hazırladıqları ilə yanaşı, sərginin gedişatında da müxtəlif növ əl işləri hazırlayır, hətta alıcılardan sifarişlər də götürdüyünü bildirir. Qonaqların əl işlərinə olan marağı onu daha çox həvəsləndirir, hazırladıqları əl işlərinin çeşid və sayını artırmağı düşünür.

Qeyd edək ki, 10 gün davam edəcək sərgi-satış oktyabr ayının 9-u yekunlaşacaq.

**✍ Bülbül QULİYEVA**
**✍ Aidə İBRAHİMOVA**

## BMT nümayəndələri Naxçıvanda olub





BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və UNDP-nin (BMT-nin İnkişaf Proqramı) beynəlxalq mütəxəssisləri, Azərbaycandakı nümayəndələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Naxçıvan Muxtar Respublikasında 3 günlük səfərdə olublar.

Səfər çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyində görüş keçirilib, Naxçıvan Muxtar Respublikasında birgə icra olunacaq müxtəlif layihələrlə bağlı fikir mübadiləsi aparılıb və prioritetlər müəyyənləşdirilib.

Səfər iştirakçıları Zəngəzur Milli Parkında endemik fauna və flora növlərinin qorunması, tullantıların idarə edilməsi, meşəsalma, meşəbərpa tədbirləri ilə bağlı və bir sıra digər layihələr haqqında da danışıqlar aparıb, həmçinin Zəngəzur Milli Parkının işçi heyəti ilə görüşüblər.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## İdmançılarla görüş



İlham Əliyev adına Olimpiya İdman Kompleksində sentyabr ayı ərzində uğur qazanan Naxçıvan şəhər idmançıları ilə görüş keçirilib.

Çıxış edənlər idmançıların əldə etdikləri nailiyyətlərə görə təbrik edib və bundan sonra iştirak edəcəkləri yarışlarda uğurlar arzulayıblar. Çay süfrəsi arxasında davam edən görüşdə idmançılarla söhbət aparılıb, onların fikirləri dinlənilib. Sonda idmançılara ay ərzində əldə etdikləri yüksək nəticələrə görə idarə adından fəxri fərmanlar təqdim edilib.

Naxçıvan Şəhər İcra Hakimiyyəti və Gənclər və İdman İdarəsinin təşkil etdiyi görüşdə 22 idmançı iştirak edib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Cari ilin ötən dövründə muxtar respublikada elektron imza uğurla tətbiq edilir

Muxtar respublikada cari ilin yanvar-sentyabr aylarında elektron imza alanların 1,43 faizini sahibkarlar, 34,28 faizini hüquqi şəxslər, 64,05 faizini dövlət qurumları və 0,24 faizini isə vətəndaşlar təşkil edib. Elektron imza almaq istəyən şəxslər müvafiq sənədləri Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim edə bilərlər. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu və elektron imzadan istifadə qaydaları barədə ətraflı məlumatları isə *nmin-com.gov.az* və ya *token.sima.az* saytı vasitəsilə öyrənmək mümkündür.

*Muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin əsasını təşkil edən fiber-optik şəbəkə vasitəsilə bütün yaşayış məntəqələrinə və qurumlara kəsintisiz rabitə və internet xidmətləri təqdim olunur.*

## "Evədək optika" layihəsi reallaşdırılır

Fiber-optik xətlər üzərindən təmin edilən GPON texnologiyası əsasında cari ilin doqquz ayı ərzində həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində 49 abonentə fiber-optik xətlər çəkilib. Həmçinin cari ilin müvafiq dövrü ərzində Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində və kəndlərində də bir sıra qurumlara fiber-optik xətt çəkilişi həyata keçirilib, yanvar-sentyabr ayları ərzində muxtar respublikada 1263 abonent yeni stasionar telefon xətti ilə, 3234 abonent isə genişzolaqlı internetlə təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Şəxsi toxunulmazlıq hüququ qanunvericilikdə necə təsbit olunmuşdur və hansı hallarda məhdudlaşdırıla bilər?*

***Cavab.*** Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq, şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

### İtmişdir

Şərur rayon Oğlanqala kənd sakini Kərimova Gülbəniz Cəlil qızının adına olan 459 inventar nömrəli, 103384 qeydiyyat nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayon Aşağı Buzqov kənd sakini Novruzov Müşviq Hüseyn oğlunun adına olan JN-0258 nömrəli, 10303018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayon Hacıvar kənd sakini Tarverdiyev Yunis Fikrət oğlunan adına olan MH-0050997 seriya nömrəli çıxarış və A-015156 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

İmranova Sevil Pirqulu qızına məxsus Şərur şəhəri, M.Müşfiq küçəsi 7/10 ünvanında yerləşən mənzilin 102011000059-05101-093005 reyestr nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 599